# Kredo

MÜBARİZƏSİDİR TARİX İNSANIN ƏDİDƏ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 32 (1112) 10 avqust 2022-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# MİRZƏ MİRİMLİ - 65

***Ay dostum, xoş xəbərlər sözə sahman oldumu.***
***Ayrılığın, həsrətin sonu ehsan oldumu?***
***Qəlbimdəki ocağın sual ahı soruşdu;***
***Yurdun yovşan qoxusu sənə dərman oldumu?***



## SEVDALARIN SONUNA DOĞRU

Mirzə Mirimli... çoxlarına, xüsusilə ədəbiyyat generallarına tanış olmayan addır. Və əlbəttə, kimsənin Mirzə Mirimli adı ilə əvvəl çadırda, sonra da qaçqın düşərgəsində yaşayan bir şairin "məni mütləq tanıyın" iddiası yoxdursa, daha kimsəni ittiham etmək də olmaz; "sən nə üçün Mirzə Mirimlini tanımırsan?

Hər halda Mirzə Mirimli ədəbi mühitdə iddiası ilə görünməsə də, sözün həqiqi mənasında sənət yanğısı, şair vətəndaşlığı və Tanrı istedadı ilə yazılmış şeirlər müəllifi olduğunu kimsə daha bilməz. Bircə o qalır ki, Mirzə Mirimlinin "Bu sevdanın sonu yoxmuş" adlı şeirlər kitabını həqiqi bir ədəbiyyat təəssübkeşi, poeziya xiridarı alıb oxusun. Və nəticə olaraq göz qabağında söz bilənin oxuduğuna cavab olaraq yalnız heyrəti görünəcək.

İllər öncə M.Mirimli, görkəmli tənqidçi ədəbiyyatşünas Qurban Bayramov və mən nəşriyyatda çay süfrəsi arxasında əyləşmişdik. Ümumi tanışlıqdan əvvəl Mirzə Mirimlidən xahiş etdim ki, "Dəli Kamal" şeirini oxusun:

*Bağlanmış qapını döyən tapılmaz,*
*Dərdini göylərə deyən tapılmaz,*
*Səni mənim qədər duyan tapılmaz,*
*Sənin nə vecinə, ay Dəli Kamal.*

*Min il ölmüşlərin dirisi sənsən,*
*Kefinin Əlisi, Vəlisi sənsən.*
*Dünyanın ağıllı dəlisi sənsən.*
*Sənin nə vecinə ay Dəli Kamal.*

Elə Mirzə Mirimli ikinci bəndi qurtarar-qurtarmaz Qurban Bayramov yerindən qalxıb onu qucaqladı: "Ayə, kefinin əlisi, vəlisi sənsən" sözünün arxasında nəyin dayandığını mən bilirəm. Vallah, sən şairsən, özü də lap böyüyündən.

Mən o vaxt Mirzənin gözlərinə baxırdım. Sifətində dəyişən cizgiləri oxumaq istəyirdim. O zaman həmin gözlərdəki işıqdan, üzdəki cizgilərdən oxuduğum məna bu idi: Mən heç şairlik davasında da deyiləm. Mən məni başa düşənlərin davasındayam. Axtarırdım ki, kimsə mənim dediyimin məğzinə, mayasına vara biləcək birisi olacaqmı?

O vaxt mənə elə gəldi ki, şair Mirzə Mirimli dünyanın ən xoşbəxt adamıdır. Çünki o, sözünün əlisinə, vəlisinə yetə bilən, söz qanan birisi ilə üzbəüz idi.

...Mirzə Mirimli ilə məni bağlayan tarixi keçmiş var.

*(Davamı 7-ci səhifədə)*

# SEVDALARIN SONUNA DOĞRU

*(Əvvəli 1-ci səhifədə)*

Cəbrayılda ustad İsmayıl İmanzadənin dərnəyindən (Qoqolun "Şinel"i yada düşür), mənim işlədiyim "Xudafərin" qəzetinin mənəvi dəstəyindən keçən bir çox yazarlar var ki, bu gün onlar Azərbaycanın yazı sənətində, poeziya xalısında öz dəst-xətləri və rəngləri ilə görünürlər. Heç şübhəsiz, biz bu yerdə Məhəmmədəli Mehdixanlının, Mirzə Mirimlinin, Əjdər Yunus Rzanın, Əhməd Fərhadın, mərhum Əziz Musanın, Valeh Heydərin və yolu davam etdirmək istəyində olan digər söz sahiblərinin - Sabir Şirvanın, Malik Əhmədoğlunun gücünü, enerjisini elmi tədqiqatlara sərf edən Şakir Əlifoğlunun poetik və publisist yaradıcılığını ustalıqla əlaqələndirən Hidayət Səfərlinin və başqalarının adlarını da çəkə bilərik. Sözün sevinən tərəfi budur ki, indi həmin adlar bu və ya digər dərəcədə ədəbi-mədəni mühitimizdə kifayət qədər tanınır və görünürlər.

Açığı bu qeydlərdə sözümün canı Mirzə Mirimlidir. Onun çox yazmaq iddiası ilə heç mübahisəsi də yoxdur. Mirzə Mirimlinin "Bu sevdanın sonu yoxmuş" (2010) kitabı mənə bir daha klassik bir həqiqəti xatırlatdı. Böyük şairlər - sözün yeddi qat dərinliyinə vara bilən şairlər, nəinki bircə kitabı ilə, elə bircə şeiri ilə də yaşamaq haqqı qazana bilirlər.

Adını çəkdiyim kitaba fəxrlə "Kredo" ədəbi məktəbinin yetirməsi olan Hidayət Səfərlinin yazdığı ön sözün başlığına diqqəti çəkirəm: "Bu sevdanın sonu olsa, olan-oldu, keçən-keçdi deyərlər". Nə gözəl improvizədir. Həm sözə qiymət verənin özü görünür, həm də söz sahibinin özü göz qabağına çəkilir.

İnsafən, elə insanlar var ki, heç sözdən, sənətdən xəbəri olmasa belə, həsrətinə doğru üz tutur. Yatanda da ayrılığına sarı baş qoyub yatır. Bələlərinin sayı insanlığın sayı qədər də ola bilər. Amma həsrətə doğru baş qoyub yatan bir şair varsa, həmin ayrılıq odunda yanan minlərin, milyonların hamısı üçün görk mənbəyi olar. Şair həsrətə doğru yatırsa, bu, elə həsrətin sonuna çağırış deməkdir. Yəni yurda tərəf, Vətənə tərəf yön tutmaqdır.

Açığı mənə elə gəlir ki, insanların andı, istəyi bitməyən arzuların dilə gətirilməsidir. Və elə bu yerdə mütləq demək istəyirəm ki, Mirzə Mirimli üçün insan həqiqətləri, insan iztirabları şəxsən onun özünün ağrıları elə onun and mənbəyidir. Yəqin ki, bu yöndən sözün məğzinə gəlsək, gərək etiraf edək ki, Mirzə Mirimli qədər yurdunu atasının, babasının qəbrinə bərabər tutan az şair var. Mirzə Mirimli yurd ağrısını sözün həqiqi mənasında elə günün altında yanmağı ilə bir yerdə çəkib. Bir vaxt onun haqqında demişdim:

"İldırımlar qəfil çaxdı, neyləyək,
Bizi yaman qarsdı, yaxdı, neyləyək.
Dünya etibarsız çıxdı neyləyək?"
Belə zülmü kimsə çəkməz qabırda,
Mirzə Mirim axı yandı çadırda.

Bu beş misralıq Şəhriyar üslubundakı bəndin birinci üç misrası Mirzənin özünündür. Mən "Bir Xələfli var imiş" poemamda Mirzənin obrazını qədərincə vermək üçün özünə istinad etmişdim. Onu da deyim ki, Mirzə Mirimli də ruhuna doğma olan Şəhriyar üslubunun təsiri ilə "Bir kəndin nağılı" adlı poema yazdı.

Mirzə Mirimli sözünün gücü olan, məntiqinin kəsəri olan müəllifdir. Lap klassik zamanlardan üzü bəri az-az qələm sahibləri tanınır ki, onların hökm sahiblərinin hüzuruna getməyə ehtiyacları olmur. Yox, söhbət maddi ehtiyacdan getmir. Amma insan öz içində bütövdürsə, tamahına sahibdirsə, kimsənin hüzuruna getməyə də lüzum görmür. Ancaq bu, o demək deyil ki, onun ehtiyacları yoxdur. Sadəcə mənəvi toxluq onu təmin edir.

Şair-publisist Mirzə Mirimli mənəvi toxluğu ilə fərqlənən qələm adamlarından biridir.

***(Davamı var)***

***Əli Rza XƏLƏFLİ***
***10.08.2022***